No: 03 2025
https://doi.org/10.64400/ea25-3-27
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# SÜNİ İNTELLEKT ƏSRİNDƏ RƏQƏMSAL KONSTİTUSİONALİZM VƏ AZƏRBAYCANDA KONSTİTUSİYA NƏZARƏTİ

**İlqar MƏMMƏDLİ**

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyasının 5607.01 - Konstitusiya və bələdiyyə hüququ ixtisasının əyani doktorantı
*Yazışılan müəllif:* memmedliilqar52@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 17.09.2025*
*Nəşr edilmə tarixi: 28.10.2025*

**AÇAR SÖZLƏR:**
konstitusiya nəzarəti, süni intellekt, rəqəmsal konstitusionalizm, konstitusiyanın aliliyi, fundamental hüquqlar

**XÜLASƏ**

IV Sənaye İnqilabının çağırışları, süni intellekt əsrinin günbəgün sürətlə irəliləyən innovativləri ilə ayaqlaşmaq məqsədilə ölkələrin rəqəmsallaşma səyləri köklü dəyişikliklərə qapı açır. Bu yeniliklərin fonunda konstitusiya nəzarətinin ənənəvi analoq qaydada qalması mümkün deyil. Bu dəyişikliklər və yeniliklər, süni intellekt texnologiyaları ilə bağlı inkişaflar dövlətlərin "ağıllı konstitusiya" anlayışına doğru irəliləməsinə zəmin yaradır.
Fəlsəfi, sosioloji və hüquqi aspektlərin vasitəçilik etdiyi konstitusiya dəyərləri ümumbəşəri və çoxölçülü kateqoriyadır. Bu dəyərlər ictimai münasibətlərin subyektlərinin həyatının bütün sferalarını və səviyyələrini əhatə edir və bu subyektlər üçün onlar arasındakı münasibətlərin xarakterini müəyyən edən göstərici kimi çıxış edir.
Konstitusiya nəzarəti Azərbaycan Respublikasının, ümumiyyətlə istənilən müasir demokratik dövlətin konstitusiya quruluşunun bütöv sisteminin ayrılmaz hissəsidir. Bu hüquq institutu dövlətin əsas Qanununun hüquqi müdafiəsinin həyata keçirilməsinin səmərəli yolu kimi xidmət edir, vətəndaşların konstitusiya hüquq və azadlıqlarının müdafiəsi mexanizminin mühüm tərkib hissəsidir. Bu hüquq institutunun unikallığını onunla izah edə bilərik ki o, bütövlükdə dövlətin qanun vəziyyətinin qorunub saxlanılmasında xüsusi rol oynayır.
Məqalənin əsas məqsədi süni intellekt və rəqəmsallaşma dövründə konstitusionalizmin yeni formalarını araşdırmaq, Azərbaycan nümunəsində konstitusiya nəzarətinin rəqəmsal transformasiya kontekstində təhlilini aparmaqdır. Burada müəllif ənənəvi analoq əsaslı konstitusiya nəzarətinin artıq kifayət etmədiyini və "ağıllı konstitusiya" yanaşmasına keçidin zərurətini əsaslandırmağa çalışır.

## GİRİŞ

Müasir dünyada qanunların konstitusiyaya uyğunluğuna diqqət müxtəlif formalarda özünü göstərir. Ümumi qayda ondan ibarətdir ki, qanunların konstitusiyaya uyğunluğuna nəzarət hakimiyyətin qanunvericilik və icra hakimiyyətlərindən kənarda həyata keçirilməlidir.

Konstitusiyanın hüquqi qorunması və müdafiəsi müasir hüquqi dövlətin ən mühüm və prioritet funksiyalarından biridir. Dövlət hakimiyyəti orqanlarının bu funksiyanı yerinə yetirmək üzrə fəaliyyəti onların səlahiyyətlərinin həyata keçirilməsi və xüsusi konstitusiya nəzarəti institutunun hərəkətləri ilə həyata keçirilir. Konstitusiya nəzarəti dedikdə, ənənəvi olaraq dövlət hakimiyyəti orqanlarının fəaliyyəti, habelə qeyri-məhkəmə orqanları tərəfindən normativ hüquqi aktlarla dövlətin konstitusiyası arasında uyğunsuzluqların müəyyən edilməsi, müəyyən edilməsi və aradan qaldırılması üzrə həyata keçirilən fəaliyyət başa düşülür.

Konstitusiya nəzarətinin ən vacib klassifikasiyalarından biri onun qanunvericilik və hüquq-mühafizə təcrübəsində həyata keçirilməsi nöqteyi-nəzərindən, ilkin və sonrakı nəzarətə bölünməsidir. İlkin nəzarətin tərkib hissəsi kimi qanunların və digər normativ hüquqi aktların dövlət başçısı və ya digər səlahiyyətli şəxs tərəfindən imzalanmazdan əvvəl və müvafiq olaraq qüvvəyə minməzdən əvvəl konstitusiyaya uyğunluğu yoxlanılır.

Sirr deyil ki, qeyri-effektiv konstitusiya nəzarəti yaxud bu nəzarətin heç olmaması dövlətin əsas Qanununun ümumi davranış qaydaları toplusuna çevrilməsinə gətirib çıxarır. Nəticədə o, bütün dövlət idarəçiliyi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sistemlərinin məhvinə səbəb ola bilər.

Süni intellekt texnologiyalarının dəyişmə sürətini nəzərə alsaq, gələcəyə dair müəyyən qiymətləndirmələr etmək tez görünsə də, konstitusiyalar kontekstində dövlətlərin rəqəmsal transformasiyasının da gündəmdə olacağını söyləmək çətin deyil. Bu nöqteyi-nəzərdən, məqalədə rəqəmsallaşma əsrində yaşayan Azərbaycan Respublikasının nümunəsində müasir demokratik dövlətlərin konstitusiya nəzarəti məsələlərini yeni elmi yanaşmalarla tədqiqata cəlb etməkdir.

Konstitusiya nəzarətinin həyata keçirilməsi mexanizmində konstitusiya ədalət mühakiməsi orqanları xüsusi rol oynayır. Elmi ədəbiyyatda ənənəvi olaraq konstitusiya nəzarətinin iki modeli göstərilir:

1) Anglo-Amerika modeli;
2) Avropa dövlətləri modeli;
3) qarışıq model (Makeeva & Marokko, 2022, s. 22; Сунцов, 2020, s. 74).

İlk dəfə Amerika Birləşmiş Ştatlarında tətbiq edilməyə başlayan anglo-Amerika modelinə mütəxəssislər ABŞ ilə yanaşı, Kanada, Avstraliya, İsveç və Avropanın digər ölkələri, habelə Latın Amerikası və Yaponiya aid edirlər. Bu ölkələrdə konstitusiya nəzarəti funksiyaları ya ümumi yurisdiksiyanın ən yüksək məhkəmələrinə, ya da konkret işlərə baxılarkən ümumi məhkəmələrə həvalə edilir.

Avropa modeli Birinci Dünya müharibəsindən sonra Avropa ölkələrində həyata keçirilməyə başlamışdır. O, ixtisaslaşdırılmış məhkəmə orqanlarının – xüsusi qaydada formalaşmış konstitusiya məhkəmələrinin yaradılması ilə səciyyələnir. Konstitusiya məhkəmə nəzarətini həyata keçirmək bu orqanların müstəsna funksiyasıdır.

Qarışıq nəzarət modeli özündə həm ixtisaslaşdırılmış konstitusiya məhkəmələrinin, həm də ümumi yurisdiksiya məhkəmələrinin cəlb olunması ilə həyata keçirilən konstitusiya nəzarətini ehtiva edir.

Beləliklə, akademik ədəbiyyatda və digər tədqiqat mənbələrində konstitutsiya nəzarətini tətbiq edən ölkələr dörd qrupa bölünürlər:

1) Konstitusiya nəzarətinin aşağıdan-yuxarıya bütün məhkəmə orqanları tərəfindən həyata keçirildiyi ölkələr – ABŞ, Argentina, Meksika, Norveç, Portuqaliya, Yaponiya və s.

2) Konstitusiya nəzarəti yalnız ali məhkəmələr tərəfindən həyata keçirilən ölkələr – Avstraliya, Hindistan, İrlandiya, Kanada, İsveçrə və s.

3) Konstitusiya nəzarəti məhz bu məqsədlə yaradılmış xüsusi məhkəmələr tərəfindən həyata keçirilən ölkələr – Avstriya, İtaliya, Rusiya, AFR, Türkiyə, Azərbaycan və s.

4) Konstitusiya nəzarətinin Konstitusiya şuraları və bu kimi məhkəməyə oxşar orqanlar tərəfindən həyata keçirildiyi ölkələr – Fransa və onaməxsus modeli qəbul etmiş bir sıra digər ölkələr) (Rzayev, 2018, s. 34).

Hər bir dövlətdə ilkin və sonrakı növ konstitusiya məhkəmə nəzarətinin həyata keçirilməsi formaları və onların birləşməsi özünəməxsus xüsusiyyətlərə malikdir. Artıq qüvvəyə minmiş normativ hüquqi aktlarla bağlı həyata keçirilən sonrakı konstitusiya nəzarəti prosedurları konstitusiya məhkəmələrinin fəaliyyət göstərdiyi dövlətlər üçün ənənəvi xarakter daşıyır. Bəzi ölkələrdə parlamentdə baxılması üçün rəsmi şəkildə təqdim olunmuş və ya parlament tərəfindən qəbul edilmiş, lakin hələ də qüvvədə olmayan qanun layihələrinin, müqavilələrin və digər hüquqi aktların dövlətin konstitusiyasına uyğunluğunu yoxlamaq üçün ilkin konstitusiya nəzarəti prosedurlarına üstünlük verilir.

Konstitusiyaya və Qanuna uyğunluğu təmin etmək üçün konstitusiya məhkəmələrinin konstitusiyaya edilən dəyişikliklərə konstitusiya nəzarətini həyata keçirmək səlahiyyəti mühüm əhəmiyyət kəsb edir. Konstitusiya nəzarəti, həmçinin bu istiqamətdə səlahiyyətlərin təsis edilməsi çox vaxt birbaşa ölkələrin konstitusiyalarında təsbit edilir.

Müasir dünyada qanunların konstitusiyaya uyğunluğuna diqqət müxtəlif formalarda özünü göstərir. Ümumi qayda ondan ibarətdir ki, qanunların konstitusiyaya uyğunluğuna nəzarət hakimiyyətin qanunvericilik və icra hakimiyyətlərindən kənarda həyata keçirilməlidir.

**Analoqdan rəqəmsala: konstitusionalizm və konstitusiya nəzarəti**

Türkiyəli tədqiqatçı M.Çatlının qeyd etdiyi kimi, analoq konstitusiya ilə dövlət ictimai asayişin və fəaliyyətin hüdudlarını müəyyənləşdirir, bununla yanaşı, vətəndaşlarının əsas hüquq və azadlıqlarını tənzimləyir. Nəzəri cəhətdən bu konstitusiyalar həm də şəxsi dövlətə qarşı müdafiə edən əsas normaları və qanunvericilik, icra və məhkəmə hakimiyyəti kimi əsas mexanizmləri ehtiva edir (Çatlı, 2023: s. 371).

Konstitusiya dövlətlərinin yaranmasının fundamental əsaslarını hakimiyyətin məhdudlaşdırılması, hakimiyyət bölgüsünün yaradılması, əsas hüquq və azadlıqlardan istifadənin tənzimlənməsi, seçkilər yolu ilə milli suverenliyin önə çəkilməsi və siyasi partiyalar vasitəsilə dövlət idarəçiliyində iştirakın təmin edilməsi hesab edilə bilər. Bu mənada, konstitusiya dövlətləri əvvəlki dövrlərdən ciddi qırılma və fərqlilik nümayiş etdirmişdir. Analoq sərəncamlar və konstitusiyalar dövlət-hüquq quruluşu olaraq əvvəlki
dövrlərdən ontoloji qırılma kimi qəbul edilə bilər.

Rəqəmsal konstitusionalizm yaşadığımız süni intellekt və rəqəmsal transformasiyalar dövründə ictimai konstitusiya dəyərlərini, həmçinin hüquq və azadlıqları qorumaq üçün diqqət mərkəzində saxlanılan yanaşma kimi şərh olunur. Buna görə də, ən ümumi terminlərlə desək, rəqəmsal konstitusionalizm rəqəmsal əsrdə əsas hüquqları və ictimai dəyərləri daha yaxşı qorumağa çalışır. Bu konsepsiya informasiya texnologiyaları əsrində əsas hüquq və azadlıqların qorunmasını və dövlətlə yanaşı, bu texnologiyalar nəticəsində daha çox önə çıxan özəl sektorun subyektlərinin səlahiyyətlərini lazımi şəkildə məhdudlaşdırmağı hədəfləyir (Kama Işık, 2021, s. 39).

Konstitusionalizm azadlığı özbaşınalıqdan və hökmranlıqdan qorumaq üçün hakimiyyəti məhdudlaşdırmağa yönəlmiş siyasi və hüquqi təlimdir. O, antik dövrdən bu günümüzə qədər əhəmiyyətli təkamül yolu keçmişdir (Amaral Junior, 2021, s. 694).

Elmi ədəbiyyatın təhlili göstərir ki, Azərbaycan Respublikasında, o cümlədən əksər postsovet ölkələrində konstitusiya nəzarəti Avropa ölkələrinin modelinə əsaslanır. Yəni, ölkənin konstitusiya nəzarəti institutlaşması hüququ 1998-ci ildə fəaliyyətə başlamış Konstitusiya Məhkəməsinə məxsusdur. Keçən əsrin 90-cı illərinin əvvəllərində Sovet Sosialist Respublikaları İttifaqının dağılması, ölkənin ictimai-siyasi həyatında baş verən taleyüklü dəyişikiliklər Azərbaycan Respublikasının yeni konstitusiyasının qəbul olunmasını zəruri etmişdir.

Beləliklə, 1995-ci ilin noyabr ayında keçirilən referendum nəticəsində qəbul edilmiş yeni Konstitusiya 27 noyabr 1997-ci il tarixində qüvvəyə minmişdir. Beləliklə, yeni qəbul edilmiş Konstitusiya öz müstəqilliyini bərpa etmiş Şərqin ilk demokratik ölkəsinin dayanıqlı inkişafı naminə qarşıda duran taleyüklü prioritetlərin müəyyənləşdirmişdir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Avropa Konstitusiya Məhkəmələri Konfransı Təşkilatının tamhüquqlu üzvüdür.

Tarixi mənbələrdən əldə etdiyimiz məlumatlar göstərir ki, Konstitusiya Məhkəməsi ilk dəfə Avstriya Konstitusiyası əsasında 1920-ci ildə yaradılmışdır. Demək olar ki, onunla eyni vaxtda – yəni, 1920-ci ildə Çexoslovakiya Konstitusiyasında da ortaya çıxmışdır. Başlanğıcda bu ideya məşhur Avropa hüquqşünası Q.Kelsenin təşəbbüsü ilə mərkəzləşdirilmiş və ciddi şəkildə institusionallaşdırılmış məhkəmə nəzarətinin tətbiqini nəzərdə tutmuşdur.

Konstitusiya məhkəmələri əsasən federal hökumətlə dövlət hakimiyyətinə daxil olan qurumların hökumətləri arasında mübahisələrə baxırdılar. Avtoritar və totalitar dövlətlərdə qanunun aliliyi prinsipi tanınmadığından konstitusiya məhkəmələri əksər Avropa dövlətlərinin

konstitusiyalarında yaranmış və yalnız İkinci Dünya müharibəsindən sonra sürətlə inkişaf etməyə başlamışdır.

İxtisaslaşmış konstitusiya məhkəmələrinin yaradılmasını nəzərdə tutan məhkəmə nəzarəti modeli bu sistemi qanunların konstitusiyaya uyğunluğunun yoxlanılmasının digər növlərindən fərqləndirən müəyyən xüsusiyyətlərə malikdir. Konstitusiya Məhkəməsi ədalət mühakiməsinin həyata keçirilməsində öz səlahiyyətinə malik olmasına baxmayaraq, ümumi məhkəmə sistemindən kənarda yerləşir. Avropada konstitusiya məhkəmələri ənənəvi olaraq konstitusiyanın aliliyini, hökumətin konstitusiya normalarına əməl etməsini təmin etmək üçün nəzərdə tutulmuş xüsusi siyasi məhkəmə növü və insan hüquqlarının müdafiəsi sahəsində yüksək mövqeyə malik və mühüm qurum kimi baxılır.

Konstitusiya məhkəmələri parlamentin, prezidentin istənilən aktının, eləcə də hökumətin bəzi aktlarının Konstitusiyaya uyğunluğunu qiymətləndirə bilər. İcra hakimiyyəti orqanlarının çıxardığı aktların, habelə digər aktların Konstitusiyaya zidd olması və qanunlara uyğunsuzluğu məhkəmə sistemi çərçivəsində mövcud olan ixtisaslaşdırılmış inzibati məhkəmələr tərəfindən baxılır.

Konstitusiya nəzarəti fərdi şikayətdə mübahisələndirilən qanunlara həm prosessual, həm də maddi əsaslarla baxılmasını əhatə edə bilər. Konstitusiya nəzarətinin müxtəlif formalarına görə konstitusiya nəzarətinin hüquqi nəticələri müxtəlifdir.

Ümumiyyətlə, Konstitusiya Məhkəməsinin səlahiyyətlərindən danışarkən, ilk növbədə, onun genişliyini qeyd etmək lazımdır, çünki Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin funksiyaları konstitusiya nəzarətinin özündən kənara çıxır, respublikanın ali hakimiyyət orqanları sistemində onun özünəməxsus yerini müəyyənləşdirir (Мамедов, 2009: s. 48).

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi ilə bağlı prosedurlar, o cümlədən ölkənin və ictimaiyyətin həyatında mühüm əhəmiyyət kəsb edən məsələlərin düzgün həlli yollarının müəyyənləşdirilməsində və s. kimi taleyüklü məqamlardakonstitusiya nəzarətinin aparılması üçün Konstitusiya Məhkəməsinin fəal rolunun olması danılmaz faktdır.

Belə ki, aparılan konstitusiya islahatları kontekstində konstitusiya nəzarəti institutunun sonrakı inkişafı həm nəzəri, həm də praktiki aspektlərdə mühüm məsələ olaraq qalır. Bu baxımdan, mübahisəli vəziyyətlərin həllinə və onun daha da təkmilləşdirilməsi istiqamətlərinin işlənib hazırlanmasına xüsusi diqqət yetirməklə, bu qurumun fəaliyyətinin səmərəliliyinin hərtərəfli öyrənilməsi zəruridir. Məzmununa görə, konstitusiya nəzarəti institutu Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu kontekstində vahid normativ məkanın təmin edilməsinin vacib vasitəsidir.

Azərbaycanda konstitusiya nəzarəti hüquqi interpretasiya fəaliyyətinin optimallaşdırılmasına kömək edən şərtlərdən biri kimi qəbul edilməlidir. Çünki onun həyata keçirilməsi normativ hüquqi aktların təfsir prosesini sadələşdirməyə, hüquq-mühafizə fəaliyyətinə aydınlıq gətirməyə və onları asanlaşdırmağa imkan verir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin ölkənin ictimai-siyasi həyatında rolu onun demokratik dövlətçilik dəyəri kimi potensialının reallaşmasından asılıdır. Respublikada konstitusionalizmin və konstitusiya nəzarətinin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri konstitusiya və hüquqi ilkin şərait yaradılmışdır (Мамедов, 2009, s. 51).

Bu gün danılmaz faktdır ki, texnologiyanın yüksək sürətlə inkişaf etməsi, IV Sənaye İnqilabının çağırışları, süni intellekt və rəqəmsal texnologiyalar elmin, dövlətin və ictimai həyatın bütün sahələrində olduğu kimi, ölkənin Konstitusiya nəzarətinə də özünəməxsus təsirini göstərir. Bu nöqteyi-nəzərdən, akademik platformalarda, elmi araşdırmalarda Azərbaycan Respublikasında, eləcə də dünyanın digər qabaqcıl ölkələrində innovativ texnologiyaların çağırışları ilə ayaqlaşan, dövlətin milli maraqlarına cavab verən yeni nəsil konstitusiya nəzarəti məsələləri tədqiqata cəlb edilir.

Konstitusiyaların "rəqəmləşdirilməsi" dedikdə nəzərdə tutulan heç də konstitusiyanın rəqəmsal mühitdə olması deyil. Rəqəmsallaşma və süni intellektin irəli sürdüyü fundamental arqumentlər insan, sosial və dövlət həyatına ciddi təsir edir. Bu təsirlərlə bu gün sürətlə inkişaf edən və uyğunlaşan bir cəmiyyətdə yaşadığımız bir həqiqətdir. Eynilə, rəqəmsal transformasiyaya məruz qalmış sürətli və effektiv bir dövlət strukturu meydana çıxmışdır: idarəetmənin və məhkəmə sisteminin rəqəmsallaşdırılması, administrasiya tərəfindən süni intellekt tətbiqlərindən istifadə edilməsi və s.

Süni intellektin məlumat emal qabiliyyətinin artması ilə ölkə, suverenlik və insan elementləri tez-tez həm sosioloji, həm də hüquqi kontekstdə yenidən qiymətləndirilir. Beləliklə, bu araşdırmada ümumilikdə rəqəmsallaşmanın və xüsusilə də süni intellektin konstitusiyaların hazırlanması, tətbiqi və dəyişdirilməsi proseslərinə təsiri ilə bağlı müxtəlif yanaşmalar qiymətləndirilir. Həmçinin Azərbaycan Respublikasının simasında rəqəmsal dövlətin konstitusiyasına əsaslanan yeni nəsil "ağıllı" Konstitusiya nəzarəti məsələləri tədqiqata cəlb edilmişdir.

Qeyd edək ki, "ağıllı" konstitusiya ilk növbədə rəqəmsallaşmanın və süni intellektin təqdim etdiyi imkanlardan istifadə edilərək hazırlanmış və fərdi, cəmiyyəti və dövləti bu hadisələrin zərərlərindən qoruyan konstitusiyadır. Çünki, təcrübədə konstitusiyanın hazırlanması, tətbiqi və dəyişdirilməsi zamanı rəqəmsallaşma və süni intellektin üstünlüklərindən istifadə edilməsi də bəzi problemlər yarada bilər. Bu problemlərin aradan qaldırılması, qanunun və dövlətin ümumən ictimai hüququn, xüsusən də konstitusiya hüququnun müəyyən edilmiş prinsip və nəzəriyyələri ilə qorunması bilavasitə vəkillərin səyindən asılıdır (Çatlı, 2023, s. 382).

## NƏTİCƏ

Rəqəmsal konstitusionalizm klassik konstitusiya prinsiplərini rəqəmsal dövrün tələblərini nəzərə almağa çevirən konstitusionalizmin inkişafında yeni mərhələdir. O, texnologiyanın, xüsusən də internetin və süni intellektin cəmiyyətin hüquqi və siyasi strukturuna yayılmasını qəbul edir. İlk növbədə dövlət hakimiyyətini məhdudlaşdırmağa yönəlmiş klassik konstitusionalizmdən fərqli olaraq, rəqəmsal konstitusionalizm geniş məlumatlara və onlayn platformalara malik texnologiya şirkətləri də daxil olmaqla, özəl qurumların idarə olunmasını əhatə etməklə əhatə dairəsini genişləndirir. Bu, rəqəmsal mühitdə əsas hüquqların qorunması, şəxsi həyatın toxunulmazlığı, ifadə azadlığı və informasiyaya çıxışın təmin edilməsi zərurətini əks etdirir. Rəqəmsal texnologiyalar gündəlik həyatda daha geniş yayıldıqca, rəqəmsal konstitusionalizm qloballaşan dünyada demokratik dəyərləri qorumaq üçün dövlətin, özəl subyektlərin və ayrı-ayrı şəxslərin maraqlarını uzlaşdırmağa çalışır.

Konstitusionalizm, konstitusiya nəzarəti və süni intellektin bir-biri ilə yaxınlaşması demokratik idarəçilik modellərini, dəyərlərini və hüquqları qorumaq üçün imkanlar və problemlər yaradır. Bu səbəbdən alimlərin qənaətincə, süni intellekt hüquqi və siyasi sferaları daha da formalaşdırdıqca, rəqəmsal konstitusionalizm innovasiyaları ictimai maraqla tarazlaşdırmaq, şəffaflığı, hesabatlılığı və ədaləti təşviq etmək üçün uyğunlaşdırılmalıdır. Dünya dövlətlərinin hazırkı konstitusiya, habelə konstitusiya nəzarəti modelləri alqoritmik qərəzlilik, məlumatların məxfiliyi, eləcə də dövlətlər və özəl aktorlar arasında asimmetrik güc münasibətləri kimi süni intellektdən qaynaqlanan problemlərə cavab vermək üçün islahatlara ehtiyac duyurlar. Müqayisəli hüquqi strategiyalar əsas hüquqları qoruyan süni intellektin tənzimlənməsi üçün ən yaxşı təcrübələrə işarə edir.

Yuxarıda qeyd etdiyimiz kimi, ölkəmizin konstitusiya nəzarətinin müasir modelinin əsasını Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir. Siyasət qurucuları və hüquqşünaslar gələcəkdə demokratik və etik kontekstdə ümumi rifaha töhfə verən süni intellekt məqsədi ilə texnoloji irəliləyişləri konstitusiya idealları ilə tarazlaşdıran effektiv tənzimləyici tədbirləri formalaşdırmaq üçün qüvvələrini birləşdirməlidirlər.

## ƏDƏBİYYAT

1. Rzayev, Ə.H. (2018). İdarəetmə və nəzarət: funksional təhlil. Bakı Universitetinin xəbərləri: Sosial-siyasi elmlər seriyası, 4, 28-35
2. Çatlı, M. (2023). Yapay zekanın Anayasası: “Akıllı Anayasa” üzerine. Adalet Dergisi, 70, 369-383.
3. Kama Işık, S. (2021). Klasik Anayasacılıktan Dijital Anayasacılığa: Anayasa Hukukunun Dönüşümü. Uluslararası Bilişim Ve Teknoloji Hukuku Sempozyumu Tebliğler Kitabı, Adalet Yayınevi, Ankara, s. 39.
4. Amaral Junior, J.L.M. (2021). Constitutionalism and the Concept of Constitution. Revista Direito Publico, A1 (18), 692-742.
5. Gupta, Sh. (2025). Constitutionalism In The Age Of Artificial Intelligence: Bridging Innovation And Public Interest. International Journal of Creative Research Thoughts (IJCRT), 6 (13), a955-a960
6. Makeeva, Y.K. & Marokko, N.A. (2022). Topical Issues of Theory and Practice of Implementation Preliminary Constitutional Control in The Russian Federation at The Present Stage. Law and State: Theory and Practice, 2 (206), 22-25.
7. Мамедов, Н.Ф. (2009). Институт судебного конституционного контроля в Азербайджанской республике. Вестник Челябинского государственного университета, 7 (145), 47-51.
8. Сунцов, В.С. (2020). Модели современного судебного конституционного контроля. Сборник тезисов II Международной конференции “Проблемы и перспективы современной научной мысли в России и зарубежом”, Кемерово, 20 апреля, 74-76

## SUMMARY

## DIGITAL CONSTITUTIONALISM IN THE AGE OF ARTIFICIAL INTELLIGENCE AND CONSTITUTIONAL CONTROL IN AZERBAIJAN

**Ilgar Mammadli**

To keep pace with the challenges of the 4th Industrial Revolution and the rapidly evolving innovators of the Artifical Intelligence era, countries' digitalization efforts are paving the way for radical change. Against the backdrop of these innovations, constitutional review cannot remain in the traditional analogue order. These changes and innovations, developments related to artificial intelligence technologies, create the basis for the transition of states to the concept of a “smart constitution”.

Constitutional values, mediated by philosophical, sociological and legal aspects, represent a universal and multidimensional category. These values cover all spheres and levels of life of subjects of social relations and act as an indicator for these subjects, determining the nature of the relations between them.

Constitutional control is an integral part of the entire system of the constitutional order of the Republic of Azerbaijan and, in general, of any modern democratic state. This legal institution serves as an effective way of implementing the legal protection of the Basic Law of the state and is an important component of the mechanism for protecting the constitutional rights and freedoms of citizens.The uniqueness of this legal institution lies in the fact that it plays a special role in maintaining law and order in the state as a whole.

One of the most important classifications of constitutional review from the point of view of its implementation in legislation and law enforcement practice is its division into initial and subsequent review. As part of preliminary control, laws and other regulatory legal acts are checked for constitutionality before they are signed by the head of state or another person authorized to do so and, accordingly, before they come into force.

It is no secret that ineffective constitutional control or the absence of such control leads to the transformation of the Basic Law of the state into a general set of rules of conduct. As a result, this may lead to the destruction of the entire system of public administration, the system of protecting the rights and freedoms of citizens.

Given the speed of development of artificial intelligence technologies, although it is still too early to make any definite assessments about the future, it is not difficult to say that the digital transformation of states will also be on the agenda in the context of constitutions. From this point of view, the article aims to research the problems of constitutional control of modern democratic states using new scientific approaches using the example of the Republic of Azerbaijan, which lives in the era of digitalization.

**Keywords:** constitutional review, artificial intelligence, digital constitutionalism, constitutional supremacy, fundamental rights

## РЕЗЮМЕ

## ЦИФРОВОЙ КОНСТИТУЦИОНАЛИЗМ В ЭПОХУ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА И КОНСТИТУЦИОННЫЙ КОНТРОЛЬ В АЗЕРБАЙДЖАНЕ

**Ильгар Мамедли**

Чтобы идти в ногу с вызовами IV промышленной революции и быстро развивающимися инноваторами эпохи искусственного интеллекта, усилия стран по цифровизации открывают путь радикальным изменениям. На фоне этих нововведений конституционный контроль не может оставаться в традиционном аналоговом порядке. Эти

изменения и нововведения, разработки, связанные с технологиями искусственного интеллекта, создают основу для перехода государств к концепции “умной конституции”.
Конституционные ценности, опосредованные философскими, социологическими и правовыми аспектами, представляют собой универсальную и многомерную категорию. Эти ценности охватывают все сферы и уровни жизнедеятельности субъектов общественных отношений и выступают для этих субъектов индикатором, определяющим характер отношений между ними.
Конституционный контроль является неотъемлемой частью всей системы конституционного строя Азербайджанской Республики и в целом любого современного демократического государства. Данный правовой институт служит эффективным способом реализации правовой защиты Основного Закона государства, является важной составляющей механизма защиты конституционных прав и свобод граждан. Уникальность данного правового института заключается в том, что он играет особую роль в поддержании правопорядка государства в целом.
Одной из важнейших классификаций конституционного контроля с точки зрения его реализации в законодательстве и правоприменительной практике является его деление на первоначальный и последующий контроль. В рамках предварительного контроля законы и иные нормативные правовые акты проверяются на конституционность до их подписания главой государства или иным уполномоченным на то лицом и, соответственно, до вступления их в силу.
Не секрет, что неэффективный конституционный контроль или отсутствие такого контроля приводит к превращению Основного закона государства в общий свод правил поведения. В результате это может привести к разрушению всей системы государственного управления, системы защиты прав и свобод граждан.
Учитывая скорость развития технологий искусственного интеллекта, хотя пока еще рано делать определенные оценки относительно будущего, нетрудно сказать, что цифровая трансформация государств также будет в повестке дня в контексте конституций. С этой точки зрения статья ставит своей целью исследование с использованием новых научных подходов проблем конституционного контроля современных демократических государств на примере
Азербайджанской Республики, живущей в эпоху цифровизации.

***Ключевые слова:*** *конституционный контроль, искусственный интеллект, цифровой конституционализм, верховенство конституции, фундаментальные права*